**21-22 fevral 2026-cı il tarixlərində həyata keçiriləcək**

**"UNEARTHED™ *FIRST* LEGO League Challenge" Respublika turnirinin**

**REQLAMENTİ**

**1. Ümumi müddəalar**

1.1. Yarış saat 09:00-da başlayıb, 18:00-da yekunlaşacaq.
1.2. Yarışın keçiriləcəyi məkana saat 09:30-dan gec gələn komandalar yarışa buraxılmayacaqlar.
1.3. İştirakçılar məkana yalnız şəxsiyyət vəsiqələri yoxlanıldıqdan sonra daxil ola bilərlər.
1.4. Yarış sahəsinə yalnız mentor və iştirakçılar daxil ola bilər. Digər şəxslərin yarış zonasına girişi qadağandır.

**2. Jüri sessiyası qaydaları**

2.1. Jüri sessiyası zamanı mentorların komandalara hər hansı müdaxiləsi qadağandır.
2.2. Jüri sessiyası zamanı mentorların telefonla çəkiliş aparmasına icazə verilmir. Əgər aşkar olunarsa komanda yarışdan diskvalifikasiya olunacaq.
2.3. Jürinin suallarını yalnız komanda üzvləri cavablandırmalıdır.

**3. Robot oyunu və etiraz qaydaları**

3.1. Robot oyunu zamanı komandanın hər hansı etirazı olarsa, etiraz masadan ayrılmadan dərhal bildirilməlidir.
3.2. Komanda masadan ayrıldıqdan sonra edilən etirazlar nəzərə alınmır.
3.3. Etirazlar nəzakətli formada və oyun prosesini pozmadan bildirilməlidir.

**4. Avadanlıq və texniki tələblər**

4.1. Robotun hər hansı bir enerji mənbələrinə bağlı olması qadağandır.
4.2. Qeyri-LEGO hissələrinin (standarta uyğun olmayan əlavə detalların) istifadəsi qadağandır.
4.3. Qaydalara uyğun olmayan avadanlıq aşkarlanarsa, komandaya xəbərdarlıq/cərimə olunur və ya turnirdən diskvalifikasiya edilir.

**5. Davranış və etik qaydalar**

5.1. Yarış zamanı təhlükəsizlik qaydalarına ciddi əməl olunmalıdır.
5.2. Bütün komandalar bir-birinə və təşkilatçılara hörmətlə yanaşmalıdır.
5.3. Qeyri-etik davranış (hörmətsizlik, mane olma, aqressiya və s.) cərimə ilə nəticələnə bilər.

**6. Əlavə qeydlər**

6.1. Yarışın gedişində bütün nəticələr və mübahisəli hallar üzrə baş hakimin qərarı yekundur və dəyişdirilmir.
6.2. Reqlamentdə nəzərdə tutulmayan vəziyyətlərdə qərarı *Təşkilat Komitəsi* müəyyən edir.